**DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU (IDI)**

**AZƏRBAYCAN RESPUBLİKASI**

# NÖVBƏDƏNKƏNAR PARLAMENT SEÇKİLƏRİ

**09 FEVRAL 2020-ci il**

## II ARALIQ HESABAT

**( 17 yanvar 2020 – 07 fevral 2020-ci il )**

**BAKI**

**08 FEVRAL 2020**

# I. XÜLASƏ

Bu mərhələdə IDI seçkiöncəsi mühit, seçkilərə hazırlıq prosesi, namizədlərin qeydiyyatı prosesinin davamı, seçki administrasiyasının fəaliyyəti, seçkiqabağı təşviqat, təşviqat dövründə rast gəlinən pozuntular, şikayət və müraciətlərə baxılması vəziyyətinə dair monitorinqlər apararaq hesabat hazırlayıb.

Seckiqabağı təşviqat prosesində siyasi azadlıqların, xüsusilə ilə söz və mətbuat azadlığı və sərbəst toplaşmaq azadlığının təmin olunması yönündə irəliləyişlər baş verməyib, siyasi məhbus heasb edilən şəxslər azad edilməyib.

Hesabat dövründə Mərkəzi Seçki Komissiyası (MSK) qarşıdan gələn seçkilərə hazırlıq işlərini davam etdirib və öz fəaliyyətini texniki cəhətdən qanunauyğun qaydada və müddətdə həyata keçirib. Lakin seçki qabağı təşviqat zamanı namizədlər üçün bərabər şəraitin yaradılmasını təmin edə bilməyib.

Seçici siyahılarının yenilənməsi yanvarın 15-də 125 seçki dairəsi üzrə 5,238,000 nəfərlə başa çatıb. Siyahıya əlavə 25,098 seçici daxil edilib. MSK-nın sayı ilə Dovlət Statistika Komitəsinin acıqladığı rəqəm yenə də kəskin surətdə fərqlənir.

IDI-nin apardığı müşahidələrə görə bəzi seçki dirələrinin ərazisində yerləşən seçki məntəqələrində seçici siyahıları vurulmayıb və ya elə yerdə yerləşdirilib ki, görmək mümkün deyil. Müşahidəçilər seçici siyahısı haqda məlumat ala bilmirlər.

313 namizəd qeydiyyatdan sonra çox qısa vaxt ərzində namizədliyini geri götürüb. Müşahidələr onu göstərir ki, namizədliklərin kütləvi surətdə və dərhal geri götürülməsi bu prosesin göstərişlə həyata keçirilməsi şübhəsi yaradır. Bu qənaətə gəlməyə əsas, həm də namizədliyini geri götürən şəxslərin əksəriyyətinin dövlət büdcəsindən maliyyələşən idarə və müəssisələrdə işləməsi rol oynayır.

IDI-nin apardığı monitorinq nəticəsində seçkilərdə iştiraka davam edən namizədlərin sayının 1305 nəfər olduğu müəyyən olunub.

IDI-nin muşahidələri gostərir ki, secki muddətinin azaldılması qanunun imkan verdiyi vasitələrdən yararlanmaqla seckiqabağı təşviqat aparmağa ciddi manelər yaradıb. Təşviqat üçün əlverişli şərait yaradılmaması seçki kampaniyası dövrünün sönük keçməsinə səbəb olub.

Müxalifətin əhəmiyyətli bir hissəsi olan Milli Şura seçkilərdə iştirak etmir və bu dövr ərzində hər hansı kütləvi tədbir keçirməyib. Digər aparıcı müxalif qurumlar olan Musavat Partiyası, Real Partiyası və müstəqil namizədlərin fəaliyyəti isə daha çox seçki dairələrinə fokuslanıb, ölkə miqyaslı hər hansı kütləvi tədbirlər keçirməyiblər. Nəticə etibarı ilə seckiqabağı təşviqat prosesinin qarşıduran siyasi tərəflərin acıq, ədalətli və bərabər rəqabət şəraitində keçirilməsi imkanları itirilib.

IDI ilə əməkdaşlıq edən muşahidəcilər ölkənin 78 secki dairəsi üzrə uzunmuddətli muşahidə zamanı seckiqabağı təşviqat kampaniyasının gedişində müxtəlif pozuntu hallarını qeydə alıblar. Belə ki, seckiqabağı təşviqat prosesi yerli icra orqanlarının secki prosesinə mudaxilələri, müxalif namizədlərə, onların təşviqatçılarına qarşı təzyiqlər, inzibati resurslardan istifadə halları, namizədlər arasındakı bərabərlik prinsipinin pozulması ilə muşayiət olunub.

40 seçki dairəsi üzrə müxalif və ya müstəqil namizədin hər hansı seçki kampaniyası apardığı müşahidə olunmayıb. Faktiki olaraq həmin seçki dairələrində siyasi alternativsizlik vəziyyətidir.

Parlament seckilərinin bu mərhələsində 27 namizəd, 4 vətəndaş və 1 səlahiyyətli nümayəndədən MSK-ya 23 şikayət daxil olub. Bu şikayətlərdən 4-ü təmin edilib, 2 şikayət qismən təmin edilib, 17 şikayət əsassız olması adı ilə təmin edilməyib.

Bu dövr ərzində verilmiş 25 seçki şikayətinin (14 iddia ərizəsi, 11 kassasiya şikayəti olmaqla) 24-ü məhkəmələr tərəfindən təmin edilməyib, 1 seçki şikayəti mümkün sayılmayıb.

Təşviqat mərhələsində ödənişli təşviqatda iştirak etmək istəyən KİV-lərin qiymətləri əksər namizədlər üçün əlçatan olmayıb.

Yerli muşahidəcilərin qeydiyyatı prosesi uzrə yubanmalar və məhdudiyyətlər qeydə alınıb.

MSK tərəfindən exit-poll keçirmək üçün 3 təşkilat qeydiyyata alınıb. Lakin ictimai rəydə həmin qurumların keçirəcəyi sorğunun obyektivliyinə ciddi şübhələr var.

IDI hesab edir ki, seçki huququnu pozan butun şəxslər, xüsusən də bu işlərdə iştirak etmiş dövlət və bələdiyyə orqanlarının vəzifəli şəxsləri məsuliyyətə cəlb edilməli və cəzalandırılmalıdır. Secki komissiyaları secki gunu muşahidəcilərə secki prosesini normal şəraitdə müşahidə etmək üçün şərait yaratmalıdır. Seçki günü səsvermə və səslərin sayılması proesinə yerli icra orqanları və digər strukturların kənar mudaxilələrinin qarşısının alınması üçün hakimiyyət siyasi iradə numayiş etdirməlidir.

## II. GİRİŞ

9 fevral 2020-ci ildə Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək.

Demokratik Təşəbbüslər İnstitutu (IDI) 5 dekabr 2019-cu ildə seçkilərə start verildikdən etibarən şərtlərin imkan verdiyi çərçivədə, seçkilərin gedişinin müşahidəsilə yanaşı, seçkidə iştirak edən müxtəlif tərəflərə hüquqi yardım göstərir.

Bu mərhələdə IDI seçkiöncəsi mühit, seçkilərə hazırlıq prosesi, namizədlərin qeydiyyatı prosesinin davamı, seçki administrasiyasının fəaliyyəti, seçkiqabağı təşviqat, təşviqat dövründə rast gəlinən pozuntular, şikayət və müraciətlərə baxılması vəziyyətinə dair monitorinqlər apararaq hesabat hazırlayıb. Həmçinin bu hesabatda seçki hüquqlarının pozulmasına səbəb olan amillərin aradan qaldırılması istiqamətində tövsiyələrini verib. Ümumilikdə hesabat 12 nəfərlik uzunmüddətli müşahidəçilərin apardığı monitorinqlər və seçkidə iştirak edən müxtəlif tərəflərdən toplanmış məlumatlar əsasında hazırlanıb.

Bu hesabatdan öncə seçkiqabağı vəziyyətin qiymətləndirilməsinə dair sənəd, namizədliyin irəli sürülməsi və qeydə alınması dövrünə aid I Aralıq Hesabat, həmçinin Media Monitorinqin birinci dövr üzrə nəticələri barədə hesabat yayıb.

**IDI-nin fəaliyyətilə bağlı daha ətraflı məlumatı təşkilatın rəsmi saytından[1] əldə etmək olar.**

[1] www.idi-aze.org

## III. SİYASİ ŞƏRAİT

IDI-nin öncə yaydığı hesabatlarda göstərilən  siyasi şərait dəyişməyib, qeyd olunan problemlər öz həllini tapmayıb.

30 yanvar 2020-ci ildə  Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) 8 şikayəti üzrə qərarını elan edib. Həmin qərarlar üzrə iddia olunan pozuntuların əksəriyyəti tanınıb və hökumətin bu işlərdəki hüququ pozulan ərizəçilərə toplam 121 min 849 Avro təzminat ödəməsinə qərar verilib. Qərarlara əsasən, məhkəmə Avropa İnsan Hüquqları Konvensiyasında təsbit edilən, işgəncəyə məruz qalmama, azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması hüququ, şəxsi həyatın toxunulmazlığı, birləşmək azadlığının pozuntuları tapılıb.

6 Fevral 2020-ci il taixdə AİHM Azərbaycana qarşı daha 4 işlə bağlı qərar qəbul edib və onları baxıla-caq işlər sırasından çıxarıb. Həmin işlərdən biri (Ələkbər İsmayılov işi) kommunikasiyaya cavab ver-mədiyinə görə, digəri (Elman Dəmirov işi) vəfat etdiyinə və varisi olmadığına görə baxılacaq işlər sırasından çıxarılıb. Digər iki iş üzrə (Rəşad Ramazanov[2] işi və Orxan Əliyev işi[3]) hökumət pozuntunu qəbul edib və kompensasiya ödəməyə hazır olduğunu bildirib. Bu işlər üzrə Azərbaycan hökuməti tərəflərə 8600 Avro kompensasiya  ödəyəcək.

Ümumiyyətlə, AİHM-i bu dönəmdə 2019-cu ilin statistikasını açıqlayıb. İl ərzində Azərbaycan əley-hinə 56 şikayət üzrə qərar qəbul edilib.[4]

Həmçinin beynəlxalq qurumlardan olan Human Rights Watch 2020-ci il hesabatını[5] açıqlayıb. Hesabatda Azərbaycana aid hissəsində insan hüquqları pozuntularına dair ölkədəki vəziyyət ciddi tən-qid edilir.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 30 yanvar 2020-ci ildə keçirilən qış sessiyasında Azərbaycanda siyasi məhbus məsələsi müzakirə olunub. AŞPA- nın məruzəçisi Torhildur Sunna Evarsdottirin hesabatı əsasında siyasi məhbuslarla bağlı 2322 saylı qətnamə qəbul edilib.[6] Qətnamədə Avropa Şurası kriteriyalarına əsasən siyasi məhbus hesab edilən şəxslərin azadlığa buraxılması, siyasi motiv olması ehtimal edilən şəxslərin işlərinin ədalətli və tərəfsiz məhkəmə tərəfindən müntəzəm baxılması, siyasi motivli həbslərin təkrarlanmaması üçün məhkəmə, prokurorluq, polis sistemi və inzi-bati həbslər də daxil olmaqla məhkəmə-hüquq sistemindəki problemlərə əsaslı müdaxilə edilməsi, Avropa Məhkəməsi qərarlarının gecikdirilmədən icra edilməsi tövsiyə edilib.

Bu dövrdə Müsavat Partiyasına aid Facebook səhifələri, həmçinin partiyaya yaxın sayılan “Basta” veb portalı ələ keçirilib. Partiya səhifələrin və veb portalın fəaliyyətini hələ də bərpa edə bilməyib.

---

[2] https://hudoc.echr.coe.int/eng#{“fulltext":["rashad%20ramazanov"],"itemid":["001-201210"]}

[3] https://hudoc.echr.coe.int/eng#{“fulltext":["Orkhan%20aliyev"],"itemid":["001-201209"]}

[4] https://www.realtv.az/news/az/37550/avropa-mehkemesi-azerbaycanla-bagli-statistikani-achiqlayib

[5] https://www.hrw.org/az/world-report/2020/country-chapters/337344

[6] http://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=28584&lang=en

Bu hesabat dövründə də siyasi fəallara qarşı təqiblərlə bağlı IDI aşağıdakı məlumatları qeydə alıb:

- 24 Yanvar 2020-ci il tarixdə AXCP üzvü Əlizamin (Zamin) Salayevin işgəncəyə məruz qaldığı xəbəri yayılıb. Məlumata görə Ə.Salayev gənc bir qadına qarşı zorakılıqda adı hallanan Səlyan rayon polis idarəsi əməkdaşının hərəkətinə etiraz etdiyinə görə Bakı şəhərində həbs edilib və 8-ci polis bölməsində işgəncəyə məruz qalıb. Bu faktların yer aldığı məktub mediada yayılıb[7].

- 27 Yanvar 2020-ci il tarixdə Demokratik Qüvvələrin Milli Şurasının üzvü Gültəkin Hacıbəyliyə qarşı psixoloji təzyiq kampaniyası təşkil edilib. Ona məxsus telefon nömrələri onlayın resurslarda "seks xidməti" əlaqə nömrələri kimi yayılıb. Bu haqda şəxsin özü ictimaiyyətə məlumat yayıb.[8]

## IV. SEÇKİ ADMİNİSTRASİYASI

Hesabat dövründə Mərkəzi Seçki Komissiyası (MSK) qarşıdan gələn seçkilərə hazırlıq işlərini davam etdirib. Həmçinin aşağı seçki komissiyaları üçün treninqlər, Ali Məhkəmə və apellyasiya məhkəmələri ilə birgə layihə çərçivəsində seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan regional seminar-müşavirələr, dairə seçki komissiyalarının İT mütəxəssisləri üçün seminarlar həyata keçirib.

MSK tərəfindən yanvarın 27-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb. Komissiyanın qərarı ilə seçicilərin ümumi sayının 3%-dən çox olmamaq şərtilə 5 387 600 ədəd seçki bülleteni çap olunub. 2 fevraldan etibarən isə seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb. Seçki bülletenlərinin çap edilməsi və paylanmasına başlanma tədbirinə KİV və müşahidəçilər dəvət edilib. Bülletenlər 3 MSK üzvündən ibarət komissiyanın nəzarəti altında Milli Məclisin mətbəəsində çap edilib. Bülletenlərin çapı zamanı namizədlərin qeydiyyatı ilə bağlı apellyasiya və kassasiya şikayətlərinin təqdim edilməsi üçün müəyyən edilmiş müddət nəzərə alınmayıb.

Fevralın 5-də isə MSK tərəfindən 119 seçki dairəsi üzrə 1000 (min) seçki məntəqəsində veb-kameraların quraşdırılmasına qərar verilib və qurumun rəsmi saytında həmin məntəqələrin siyahısı yerləşdirilib.[9]

## V. SEÇİCİ QEYDİYYATI

Seçici siyahılarının yenilənməsi yanvarın 15-də 125 seçki dairəsi üzrə 5,238,000 nəfərlə başa çatıb. Beləliklə, 2019-cu il 29 mayda təsdiq edilən saydan (5,212,902) sonra siyahıya əlavə 25,098 seçici daxil edilib.

Ancaq bu rəqəm Dovlət Statistika Komitəsinin acıqladığı rəqəmlə kəskin surətdə fərqlənir. Dövlət Statistika Komitəsinin DTİHB SMM-ə verdiyi məlumata əsasən, 2019-cu ilin dekabr ayına olan səsvermə yaşına çatmış vətəndaşların sayı 7,325,000 olaraq göstərilib. Komitə qeyd edib ki, bu saya xaricdə yaşayan Azərbaycan vətəndaşları, ölkədə yaşayan xarici vətəndaşlar, habelə 1989-cu il Sovet İttifaqı

---

[7] https://www.azadliq.org/a/i%CC%87%C5%9Fg%C9%99nc%C9%99-%C5%9Fikay%C9%99tl%C9%99ri-v%C9%99-ona-veril%C9%99n-cavablar/30395103.html

[8] http://hurriyyet.info/siyaset/7204-gultekin-hacibeyliye-qarshi-exlaqsiz-kampaniya-bitmir.html#.Xjz9TGhKhPY

[9] http://www.msk.gov.az/az/newsmsk/1142/

siyahıyalmasına əsasən Dağlıq Qarabağ əhalisi daxildir.[10] Lakin təqdim edilən əsaslar uyğunsuzluğun fərqini inandıracaq gücə sahib deyildir və ağlabatan hesab edilə bilməz. Bununla əlaqədar IDI 2015-ci ildə yaydığı ***"Seçici Qeydiyatının Auditi"*** adlı araşdırmasında problemin mahiyyətini daha ətraflı izah edir.[11]

Məntəqə seçki komissiyası səsvermə gününə azı 35 gün qalmış seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahılarını səsvermə otağından kənarda, seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan olan yerlərdə məlumat lövhələrində yerləşdirməlidir. IDI-nin apardığı müşahidələrə görə bəzi seçki dirələrinin ərazisində yerləşən seçki məntəqələrində seçici siyahıları vurulmayıb və ya elə yerdə yerləşdirilib ki, görmək mümkün deyil. Müşahidəçilər seçici siyahısı haqda məlumat ala bilmirlər. Həmçinin bəzi seçki məntəqələri iş saatlarında bağlı olub. Bəzi nümunələri təqdim edirik:

- 41 saylı Sumqayıt birinci seçki dairəsində 27.01.2020 tarixində 1, 2, 3, 4, 6 , 7 və 8 saylı məntəqələrdə seçici siyahıları asılmayıb.
- 18 yanvar saat 11:24-də 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 25 saylı məntəqəsinin bağlı olması müşahidə edilib.
- 26 yanvar tarixində 17 saylı Yasamal üçüncü seçki dairəsinin 14 saylı məntəqəsində seçici siyahıları dağınıq şəkildə məntəqədəki masanın üzərində olması müşahidə edilib.
- 2 fevral tarixində 32 saylı Suraxanı 3-cü seçki dairəsinin 2, 6, 9, 17 saylı məntəqələri günorta saatlarında bağlı olub.
- 76 saylı Lənkəran-Astara seçki dairəsinin 9 saylı məntəqəsinin qarşısında informasiya lövhəsinin olmaması müşahidə edilib və 2, 17, 30, 32, 45 saylı məntəqələrdəki informasiya lövhələrini dərsdən kənar vaxt həyətin qapısı bağlı olduğundan gömək mümkün deyil. Eyni zamanda həmin dairənin 1, 2, 15, 21, 25, 27 saylı məntəqələrində seçki günü müşahidəçilər üçün nəzərdə tutulmuş yerlər əlverişsizdir. Günorta saatlarında 18, 17, 14, 23, 30, 9, 6, 16, 29 saylı məntəqələr bağlı olub.

## VI. NAMİZƏDLƏRİN QEYDİYYATI

MSK DSK-ların qeydiyyatla bağlı qərarlarından edilmiş şikayətlərə bu hesabat dövründə baxaraq, müvafiq qərarlar qəbul edib. Bu barədə ətraflı məlumat hesabatın müraciət və şikayətlər bölməsində qeyd edilib.

MSK-nın rəsmi məlumatına görə namizədliyin qeydə alınmasının başa çatdığı yanvarın 17-dən sonra fevralın 1-nə qədər olan çox qısa vaxt ərzində 313 nəfər namizədliyini geri götürüb.[12]

2015 seçkilərində bu müddət ərzində namizədliyini geri götürənlərin sayı 479, 2010 seçkilərində isə cəmi 41 nəfər olub..

Müşahidələr onu göstərir ki, namizədliklərin kütləvi surətdə və dərhal geri götürülməsi bu prosesin göstərişlə həyata keçirilməsi şübhəsi yaradır. Bu qənaətə gəlməyə əsas həm də namizədliyini geri götürən şəxslərin əksəriyyətinin dövlət büdcəsindən maliyyələşən idarə və müəssisələrdə işləməsi rol oynayır.

[10] https://www.osce.org/odihr/elections/azerbaijan/445057?download=true

[11] https://idi-aze.org/az/seici-qeydiyyatnn-auditi-pdf/

[12] https://apa.az/az/daxili_siyaset/Deputatliga-namizdliyini-geri-goturnlrin-sayi-313-nfr-catib-570005

IDI-nin apardığı monitorinq nəticəsində seçkilərdə iştiraka davam edən namizədlərin sayının 1305 nəfər olduğu müəyyən olunub. Onlardan 77.5 faizi (1,012 nəfər) bitərəfdir. Öz namizədliyini irəli sürmüş şəxslərin sayı 1070 (82%) nəfərdir. 18 siyasi partiya tərəfindən irəli sürülən 238 şəxs seçkidə iştiraka davam edir. Bunların arasında ən çox yeri YAP (122), ardınca Müsavat (25) və Ümid (19) partiyaları alıb. Namizədlərdən 294 nəfəri partiya mənsubiyyəti olduğunu bildirib və beləliklə 25 partiyanın üzvü seçkidə iştiraka davam edir.

Seçkidə namizədlikləri rəsmən bitərəf görünsə də, 2 qeyri-rəsmi müxalif seçki bloku olaraq REAL Cumhuriyyətçilər İttifaqı (30) və Hərəkət Seçki Blokunun (16) namizədləri prosesi davam etdirirlər.

Namizədlərin qeydə alınması və partiya mənsubiyyəti üzrə daha ətraflı məlumatlar Əlavə 1-də təsvir edilib.

## VII. SEÇKİQABAĞI TƏŞVİQAT

### A. HÜQUQİ ÇƏRÇİVƏ

Seçki Məcəlləsinin 75.2.-ci maddəsinə əsasən seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.

Seçki Məcəlləsinin 74.2-ci maddəsinə uyğun olaraq seçkiqabağı təşviqat aşağıdakı üsullarla aparıla bilər:

1. Kütləvi informasiya vasitələri ilə;
2. Kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s.) kecirilməsi yolu ilə;
3. Çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;
4. Qanunla qadağan edilməyən digər usullarla

Seckiqabağı təşviqat kampaniyası televiziya və radio vasitəsilə, eləcə də dövrü nəşrlər vasitəsilə həyata kecirilir. Secki Məcəlləsinin 80.1-ci maddəsinə uyğun olaraq namizədləri 60 secki dairəsindən çoxunda qeydiyyatdan kecən siyasi partiyalar və siyasi partiyalar bloku İctimai televiziya və radioda pulsuz efir vaxtı əldə edə bilər.

Seçki Məcəlləsinin 86-cı maddəsində qeyd edilir ki, dövlət orqanları, bələdiyyə qurumları namizədlərə, siyasi partiyalara təşviqat dövründə vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində, keçirilməsində yerlərin ayrılmasında kömək etməlidirlər.

### B. MÜHİT

IDI-nin muşahidələri gostərir ki, secki muddətinin azaldılması qanunun imkan verdiyi vasitələrdən yararlanmaqla seckiqabağı təşviqat aparmağa ciddi manelər yaradıb. Təşviqat üçün əlverişli şərait yaradılmaması seçki kampaniyası dövrünün sönük keçməsinə səbəb olub. Həmçinin müxalifətin əhəmiyyətli bir hissəsi olan Milli Şura seçkilərdə iştirak etmir və bu dövr ərzində hər hansı kütləvi tədbir keçirməyib. Digər aparıcı müxalif qurumlar olan Musavat Partiyası, Real Partiyası və müstəqil namizədlərin fəaliyyəti isə daha çox seçki dairələrinə fokuslanıb, ölkə miqyaslı hər hansı kütləvi tədbirlər keçirməyiblər. Nəticə etibarı ilə seckiqabağı təşviqat prosesinin qarşıduran siyasi tərəflərin acıq, ədalətli və bərabər rəqabət şəraitində keçirilməsi imkanları itirilib.

Parlament seckilərinin növbədənkənar keçirilməsi, əlverişli siyasi mühitin yoxluğu, seçkidə iştirak qərarı verən siyasi partiya namizədlərinin irəli sürülmə və qeydiyyata alınmasına yaradılan problemlər nəticəsində YAP istisna olmaqla digərləri təşviqat dövründə pulsuz efir vaxtını əldə etmək huququ qazana bilməyib. YAP da təktərəfli təşviqat aparmayacağını bəyan edərək əldə etdiyi huquqdan imtina edib. Eyni hal 2010-cu il parlament seçkiləri dövründə baş versə də, MSK qərarı ilə qeydiyyatdan kecmiş hər namizədə İctimai Televiziyada bir dəfə 4 dəqiqəlik pulsuz efir vaxtı verildi. Bu seçkilərdə isə 2015-ci ildə olduğu kimi belə bir qərar verilmədi və nəticədə ödənişsiz təşviqat imkanı yaradılmadı.

Ödənişli təşviqatda iştirak etmək istəyən KİV-lərin qiymətləri də əvvəlki hesabatda qeyd olunduğu kimi əksər namizədlər üçün əlçatan olmayıb. IDI təəssüflə qeyd edir ki, İctimai Televiziyada pullu efir vaxtının qiyməti reklam qiymətinin maksimum həddində gostərilib. Bu barədə məlumat I Aralıq Hesabatda daha ətraflı təsvir edilib.[13]

MSK seckiqabağı təşviqat dövründə namizədlərin seçicilərlə gürüşməsi və toplantılar keçirməsi üçün hər bir seçki dairəsi üzrə 1 açıq və 1 qapalı olmaqla cəmi 272 yerin siyahısını müəyyənləşdirib. Lakin 2010 parlament seçkilərində 2676 yer açıq və 2254 yer qapalı olmaqla cəmi 4930 yer ayrılıb. IDI-nin uzunmuddətli muşahidəçiləri 17 yanvardan başlayaraq bu yerlərin montitorinqini aparıb. Muşahidələr əsasında məlum olub ki, əksər yerlərin sahəsi və ucqar məsafədə yerləşməsi seçicilərlə görüşlərin kecirilməsi üçün münasib deyil.

Əvvəlki seckilərdən fərqli olaraq bu seckilərdə deputatlığa namizədlər yeni medianın imkanlarından geniş istifadə ediblər. "Facebook", "Youtube", "Twiter" kimi sosial şəbəkələrdə namizədlərin təbliğatları aparılıb. Bu təşviqat usullarına muraciət edilməsinin digər bir səbəbi isə ödənişli təşviqat imkanlarının namizədlər üçün maddi baxımdan əlçatan olmamasıdır.

Namizədlər öz təşviqatlarını həmçinin veb portallar və informasiya agentliklərində də aparıblar.

## C. IDI-nin seçkiqabağı təşviqat kampaniyası uzrə muşahidələri

IDI ilə əməkdaşlıq edən muşahidəcilər ölkənin 78 secki dairəsi uzrə uzunmuddətli muşahidə zamanı seckiqabağı təşviqat kampaniyasının gedişində müxtəlif pozuntu hallarını qeydə alıblar. Həmçinin müşahidələr onu göstərir ki, 40 seçki dairəsi üzrə müxalif və ya real müstəqil namizədin hər hansı seçki kampaniyası apardığı müşahidə olunmayıb. Faktiki olaraq həmin seçki dairələrində siyasi alternativsizlik vəziyyətidir.
Daha ətraflı məlumatlar Əlavə 2-də təsvir edilib.

***IDI muşahidə etdiyi pozuntu hallarını aşağıdakı formada qruplaşdırıb:***

### a) İnzibati və maliyyə resurslardan sui-istifadə halları

Bu cur qanun pozuntuları ilə bağlı daxil olan məlumatlar gostərir ki, son illərdə kecirilən seckilərdə olduğu kimi bu seckilərdə də namizədlər secicilərin rəğbətini qazanmaq ucun muxtəlif qanunsuz vasitələrdən istifadə ediblər. Belə ki, bəzi secki dairələrində namizədlər secicilərə əvəzsiz xidmətlər gostərərək, onların yaşadıqları məhəllələrdə, yerli xarakterli yollarda abadlaşdırma və təmir işləri

[13] http://idi-aze.org/az/idi-nin-nvbedenkenar-parlament-sekileri-ile-bal-araliq-hesabati/

- 13 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə daxil olan məlumata görə YAP-ın namizədi Rauf Əliyevin 25.01.2020-ci ildə Buzovna qəsəbəsində 26, 134 nömrəli və Mərdəkan qəsəbəsində yerləşən 181 nömrəli məktəblərdə görüşləri zamanı müəllimləri məcburi görüşlərə cəlb ediblər. Eyni hallar 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsində YAP-ın namizədi Vaqif Həmzəyevin 27.01.2020 tarixdə Gəncə Heydər Əliyev Mərkəzində görüşü zamanı, 42 saylı Sumqayıt ikinci seçki dairəsində YAP-ın namizədi Tahir Mirkişilinin 24.01.2020 tarixində baş tutmuş görüşü zamanı, həmçinin 53 saylı Quba-Qusar seçki dairəsində müstəqil namizəd Rafailov Anatoliyin 23.01.2020 tarixində Qonaqkənd və Xaltan kəndlərindəki görüşləri zamanı da baş verib.
- 14 saylı Xəzər seçki dairəsində Soltan Məmmədovun səlahiyyətli nümayəndələrindən biri olan Zakir Bəşirov 29 saylı Bakı Şəhər Xəstəxanasının baş həkimi olduğu üçün öz səlahiyyətlərindən istifadə edərək xəstəxana işçilərini Soltan Məmmədovun seçki kampaniyasında iştiraka vadar edib. 15 saylı Yasamal birinci seçki dairəsində bitərəf namizəd, hazırkı deputat Ülvi Quliyevin vəkillərindən biri Respublika Xəstəxanasında baş həkimdir. O, xəstəxanın işçilərini Ülvi Quliyevin görüşlərində iştiraka vadar edib.
- 17 saylı Yasamal üçüncü seçki dairəsindən YAP-ın namizədi Elnur Allahverdiyevin 27.01.2020 tarixində Qədirli küçəsində seçicilərə qanunsuz olaraq maddi yardım və hədiyyələr verdiyi müşahidə olunub.
- 25 saylı Nizami ikinci seçki dairəsi üzrə YAP -ın namizədi S.Vəliyeva evi təmirsiz olan bir seçicinin evini təmir edəcəyini öz öhdəsinə götürüb və bunun müqabilində ev sahibindən binada onun üçün təbliğat aparmasını istəyib. 117 saylı Oğuz-Qəbələ seçki dairəsində YAP-ın namizədi Naxçıvanlı Aqiyə 1 tələbənin 600 manatlıq ödənişini öz üzərinə götürüb, imkansız ailələrə də 200 azn maddi yardım edib. 33 saylı Xətai birinci seçki dairəsindən YAP-ın namizədi Hüseynbala Mirələmov və 47 saylı Mingəçevir seçki dairəsindən YAP-ın namizədi Aydın Mirzəzadə müvafiq dairə ərzisində təmir işləri aparıb. 77 saylı Astara dairəsindən YAP-ın namizədi Rəşad Mahmudov ərazdəki meydançaya qazon örtüyü çəkdirib.
- 27 saylı Sabunçu ikinci seçki dairəsi ərazisində yerləşən 311 nömrəli məktəbdə rayon qeydiyyatında olan valideynlərə şagirdlər vasitəsilə seçkiyə gəlməklə bağlı bildiriş göndərilməsi barədə məlumat yayılıb.
- 43 saylı Sumqayıt üçüncü seçki dairəsində YAP-ın namizədi Emin Hacıyevin yanvarın 28-i 17-ci mkr-da keçirilən görüşü zamanı büdcə işçilərinin görüşdə kütləvi iştirakı baş verib. MİS işçiləri sakinlərin evlərinə zəng edərək onlardan seçki günü YAP-ın namizədinə səs vermələrini istəyib. 117 saylı Oğuz-Qəbələ seçki dairəsində YAP-ın namizədi Naxçıvanlı Aqiyənin görüşlərində Oğuz İH-nin ərazi idarəetmə şöbəsinin müdiri Səyyaf Abbasov, Oğuz rayon kənd təsərrüfatı idarəsinin rəhbəri Azad Əliyev, Cümə Məscidinin imamı Şövkət Cəlilov iştirak edib.
- 21 saylı Nəsimi birinci seçki dairəsində YAP-ın namizədi Məlahət İbrahimqızının 28 yanvar 2020-ci il tarixdə 159, 54, 211 nömrəli məktəblərin həyətlərində müəllimlərlə məcburi şəkildə görüşlər keçirilib.
- 24 yanvarda 74 saylı Lənkəran kənd seçki dairəsindən YAP-ın namizədi olan Hadı Rəcəblinin Girdənə kəndində görüşü üçün Lənkəran-Lerik yolunda yerləşən kənd məktəblərində saat 10:00 radələrində dərs dayandırılaraq müəllimləri, şargirdləri, eyni zamanda məktəb ərazisində olan bəzi valideynləri xüsusu avtobuslarla aparıblar. Eyni zamanda 5 fevralda 60 saylı Salyan-Neftçala seçki dairəsində AVP-nin namizədi olan Fəzail Ağamalının görüşü üçün Yolüstü və Kərimbəyli kəndlərində dərs dayandırılaraq, müəllimlər görüşə aparılıb.
- 25 saylı Nizami ikinci seçki dairəsi ərazisində ARDNŞ bəzi yolları asfaltlayır və xeyir-şər evlərini təmir etdirir ki, bu da YAP namizədi Səadət Quliyevanın xeyrinə təbliğ kimi qəbul olunur.
- 28 saylı Sabunçu üçüncü seçki dairəsində namizəd Eldar Quliyev Bilgəhdə kənd icra nümayəndəliyinin rəhbərliyi altında pul paylatdırıb. 1 məntəqədə səs üçün 20, 2 məntəqədə səs üçün 40 manat verilib, Maştağada seçicilərə gödəkcə paylanılıb. Həkimlər, müəllimlər əlavə geyimlərini iş yerlərinə gətirir.

Seçki günü öncədən toplanan şəxsiyyət vəsiqələri ilə hər dəfə bir geyimdə məntəqəyə gəlib səs vermələri üçün hazırlıq görülür.

- 29 saylı Nəsimi-Səbail seçki dairəsindən müstəqil namizəd Nigar Arpadarai 21 yanvar tarixində 6 saylı məktəbdə görüş keçirib və görüşə toplu şəkildə müəllimlər də iştirak edib və eyni zamanda namizədin təbliğatı üçün istifadə edilən çap materiallarında tiraj, sifariş edən, çap edən haqqında məlumat verilməyib.
- 31 saylı Suraxanı ikinci seçki dairəsindən MDHP namizədi, deputat Fərəc Quliyev Hərəkət Seçki Blokunun namizədi Mehman Hüseynova namizədliyini onun xeyrinə geri çəkməsi üçün 15000 AZN təklif etməsi barədə səs yazısı yayılıb.
- 32 saylı Suraxanı üçüncü seçki dairəsindən YAP namizədi Həsənova Afətin görüşlərinə Suraxanı icra hakimiyyəti başçısının müavini Etibar Yolçuyev (seçki qərargahının rəhbəri) məktəb müəllimlərini və həmin ərazidə qeydiyyatda olmayan işçiləri cəlb edib.
- 41 saylı Sumqayıt birinci seçki dairəsində YAP-ın namizədi Hicran Hüseynovanın seçicilərlə 2 fevral 2020-ci ildə 47-ci məhəllədə və 31 yanvarda 17-ci mikrorayonda keçirilən görüşündə seçicilər müəllimlərdən və jek işçilərindən ibarət olub. Eyni dairədə Müsavat Partiyasının namizədi Könül Alıyeva 25.01.2020-ci ildə seçiciləri ilə görüş keçirən zaman MİS nümayəndələri onun seçicilərini aldadaraq YAP namizədi Hicran Hüseynovanın görüşünə aparıblar.
- 54 saylı Şabran-Siyəzən seçki dairəsində YAPın namizədi Sadiq Qurbanov ərazidə yol təmiri ilə məşğul olub.
- Göyçay rayon icra başçısı 88 saylı Göyçay seçki dairəsi üzrə namizəd Sabir Hacıyevin təbliğatında birbaşa olaraq iştirak edib.
- Xaçmaz Regional Mədəniyyət İdarəsinin Rəisi Nazim Ağayev və Xaçmaz Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Səyyaf Tağıyev öz əməkdaşlarından 55 saylı Xaçmaz şəhər seçki dairəsi üzrə YAP-ın namizədi Eldəniz Səlimova səs vermələrini tələb edib.
- Neftçala rayon mərkəzi bazarında asfaltlama, Şorsulu Xəzərkənd yolunun cari təmir işləri seçki dövrünə salınıb. 61 saylı Neftçala seçki dairəsindən namizəd olan VHP sədri Sabir Rüstəmxanlının “dövlət büdcəsindən görülən işləri mən etdirirəm” deyə təbliğat apardığı müşahidə olunub.
- 66 saylı Biləsuvar seçki dairəsi üzrə müstəqil namizəd Məhərrəmov Bəhruzun görüşləri zamanı icra hakimiyyətinin işçiləri kəndin tanınan ağsaqqallarını, dini nüfuzlu şəxsləri, şəhid ailə başçılarını yığıb görüşə aparırlar.
- 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsindən ADP-nin namizədi Daşqın Quliyevə 25.01.2020 tarixdə Hacıabad kəndində yerləşən MnSK-da nəticələrin VHP namizədi Fəzail İbrahimlinin xeyrinə həll olunacağı deyilib. Həmçinin 68 saylı Cəlilabad seçki dairəsinin 9 saylı MnSK-nın sədri Bünyadov Vaqif vətəndaşları Elman Nəsirova səs verməyə təşviq edib.
- Azadlıq radiosu xəbər verib ki, 77 saylı Astara seçki dairəsi üzrə qeydə alınmış YAP namizədi Rəşad Mahmudovun keçirdiyi görüşdə iştirak edən seçicilərdən bəziləri Astara rayon İcra Hakimiyyətində vəzifə daşıyır, kitabxananın, təhsil şöbəsinin müdirləridir və eyni zamanda, müxtəlif idarələrdə işləyən rəhbər şəxslərdir. Astara rayon İcra Hakimiyyəti başçısının birinci müavini Allahverən Mahmudov YAP-ın namizədinin vəkilləri arasında onların da işçilərinin olduğunu təsdiq edib.
- 78 saylı Lerik seçki dairəsində deputat və hal-hazırda namizəd olan İqbal Məmmədovun vəkili, YAP Lerik rayon təşkilatının və eyni zamanda Lerik rayon icra hakimiyyətinin başçısının birinci müavini olan Cəlil Baxşiyev dövlət müəssisələrində çalışanlara xəbərdarlıq edərək, İqbal Məmmədova səs verməyə taşırıq verib. O, Mondigah kəndində müstəqil namizədin görüşünə gedən müəllimlərə təziqlər edib.
- 27 yanvar tarixində 92 saylı Zərdab –Ucar seçki dairəsindən 3 çağırış deputat və hazırda namizəd olan Jalə Əliyeva Zərdab rayon Əlvənd kənd klubundakı təbliğat kompaniyasına bir neçə kənd icra nümayəndəsi və məktəb direktoru cəlb edib və həmin görüntüləri facebook səhifəsində paylaşıb.

- Bərdə rayon icra hakimiyyəti başçısı Vidadi İsayev müəllimlərə və məktəb direktorlarına görüşlərə gəlmək üçün təzyiq göstərib və Zahid Orucun təbliğatını aparıb. Bərdənin axundu Ramazan əfəndi Vidadi İsayevin tapşırıqlarına əsasən Zahid Orucun şərəfinə xütbə oxuyub.
- 24 yanvar 2020-ci il tarixində yayılan məlumata görə, Bərdə rayonunda YAP-in namizədi Fatma Yıldırım kəndə asfalt yol çəkdirib.
- 108 saylı Ağstafa seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Vüqar Mustafayev bildirib ki, ona 25 yanvar 2020-ci il tarixində DSK-ın əməkdaşlarından namizədliyini geri çəkmək üçün pul təklifi edilib. O bildirib ki, bu hal dəfələrlə təkrar edilib.
- 113 saylı Şəki şəhər seçki dairəsində 31 yanvar 2020-ci il tarixində YAP-ın namizədi Vüqar İskəndərovun seçicilərlə görüşünə 115 saylı seçki dairəsindən adamlar gətirilib. Həmçinin Vüqar İskəndərovun 24 yanvar 2020-ci il tarixində keçirilən görüşünə məcburi olaraq müəllimlər cəlb edilib.
- 18 yanvar 2020-ci ildə Azərbaycan Dillər Universitetinin rəsmi facebook səhifəsi 85 saylı Şamaxı seçki dairəsində və 22 saylı Nəsimi ikinci seçki dairəsində namizəd olan, eyni zamanda həmin təhsil müəssisəsində çalışan Tamam Cəfərovanın və Sərraf Hüseynovun posterlərini, təbliğat-təşviqat kompaniyasından görüntüləri paylaşaraq müəllimlərə, tələbələrə və məzunlara onlara səs verməyə çağırış ediblər.

**b) Namizədlərə bərabər imkanların yaradılmaması**

Muşahidələrə əsasən bəzi secki dairələrinin ərazilərində namizədlər üçün bərabər şərait təmin edilməyib. Bu da Secki Məcəlləsinin namizədlər üçün bərabər şəraitin yaradılması haqqında tələblərinin pozulmasıdır.

- 14 saylı Xəzər seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Cavid Qəmbərov 25 yanvar tarixində Binədə yerləşən mədəniyyət evində görüş keçirmək üçün razılıq alıb. Həmin gün bu məkanda bitərəf namizəd Abid Qafarov seçicilərlə görüş keçirməsinə baxmayaraq 26 yanvar tarixində Cavid Qəmbərova DSK-dan deyiblər ki, ona görüş üçün bu yeri verə bilməzlər. 41 saylı Sumqayıt birinci seçki dairəsində YAP namizədi Hicran Hüseynova və bitərəf namizəd Əliyev Tahir xeyir-şər evlərində çox asan şəkildə görüş keçirə bildiyi halda, "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Vasif İsmayıl həmin yerlərdə görüş üçün icazə ala bilmir. 4 fevral 2020-ci il tarixində 41 saylı DSK-dan ona yalnız 7-ci mikrorayon ərazisində təşviqat aparılmasına icazə verildiyi deyilib.
- 18 saylı Nərimanov-Nizami seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Vüqar Həsənov 25 yanvar 2020-ci il tarixində bütün namizədlər üçün ayrılmış "Aşqarlar kimyası" institunda seçicilərlə görüşmək üçün müraciət edib. DSK-dan müsbət cavab alsa da, həmin gün müəssisədən namizədin görüş keçirməsinə əngəl törədiblər. Bildiriblər ki, bizə bu haqda heç bir məlumat verilməyib.
- 24 saylı Nizami birinci seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Ayxan Mehdizadə 19 yanvarda Keşlə qəsəbəsində yerləşən aptekin sahibi ilə razılaşdıraraq aptekin divarına təviqat materialını yapışdırıb. Lakin bir müddət keçdikdən sonra DSK-dan materialı götürməyi tələb ediblər.
- 25 saylı Nizami ikinci seçki dairəsindən müstəqil namizəd İradə Cavadovaya DSK xəbərdarlıq edib ki, təbliğat-təşviqat materiallarını çap etdirmək üçün ödənişi yalnız bankdan köçürmə vasitəsilə edə bilər, seçki hesabından nağdlaşdırmaya icazə verilmir.
- 41 saylı Sumqayıt birinci seçki dairəsində 39 saylı məktəbdə YAP namizədi Hicran Hüseynovanın posterləri məktəb pəncərələrinə vurulub, digərlərinə belə imkan yaradılmayıb.
- 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsindən Müsavat partiyasının namizədi Əlipənah Rzalıya Cəlilabadın Soyuqbulaq kəndində icra nümayəndələri dayanacaqda təşviqat materialını yapışdır-

mağa icazə verməyib. Onun 05.02.2020-ci il tarixində Göytəpə şəhərində Heydər Əliyev parkında görüşü planlaşdırılsa da, Göytəpə kəndinin icra nümayəndəsi Sabir Hüseynov görüşə icazə verməyib.

- 76 saylı Lənkəran-Astara seçki dairəsinin 34 saylı məntəqəsində YAP-ın namizədi Ziyafət Əsgərovun posteri aşkar edilib. Məntəqə sədri bildirib ki, yağış təşviqat lövhəsindəki materialı korlasa, əvəzinə bunu asacaqlar.
- 95 saylı Tərtər Seçki Dairəsindən müstəqil namizəd Vüqar Əliyev fevralın 3-də DSK-ya ərizə ilə müraciət edərək namizədlər üçün ayrılmış Tərtər Mədəniyyət Evində 6 fevral saat 16.00-da seçicilərlə görüşünə şərait yaradılmasını istəyib. Lakin DSK nə ərizəni qəbul edib, nə də imtina haqqında rəsmi sənəd təqdim edib.

## c) Seçkiqabağı təşviqat dövründə təzyiqlər

Seckiqabağı təşviqat dövründə secki iştirakçılarına, xüsusən də namizədlərə təzyiq halları qeydə alınıb. Bu cur hallar əsasən namizədlərin görüşü zamanı seçicilərə qarşı, habelə namizədlərin təşviqat materiallarının yapışdırılması ilə bağlı olub. Bu isə Secki Məcəlləsinin 55-ci maddəsinin tələblərinin pozulmasıdır.

- 8 saylı Binəqədi birinci seçki dairəsində “REAL Cümhuriyyətçilər İttifaqı”ndan namizəd Rüfət Rəhimova 22 yanvar 2020-ci il tarixində iş yerində müdiri tərəfindən namizədliyini geri çəkməsi tələb edilib. Onun sözlərinə görə, təzyiqlər imzatoplama dövründən başlayıb, lakin bir müddət dayandıqdan sonra yenidən davam edib.
- 18 saylı Narimanov- Nizami seçki dairəsindən deputatlığa namizəd Oqtay Qasımovun seçicilərlə görüşünə polis müdaxiləsi olub. Bu barədə 24 yanvarda mediada məlumat yayılıb.
- 27 saylı Sabunçu ikinci seçki dairəsində “REAL Cümhuriyyətçilər İttifaqı”ndan namizəd Emin Məsimli bildirir ki, onun özünə, köməkçilərinə və komanda üzvlərinə 3 fevral 2020-ci il tarixində DSK sədri zorakılıq edib və 40-a yaxın müşahidəçini qeydiyyata almaq istəməyib.
- 28 saylı Sabunçu üçüncü seçki dairəsində 187 saylı orta məktəbin müdiri və MnSK sədri Nailə Məmmədova valideynləri məktəbə çağıraraq səxsiyyət vəsiqəsi verməyən, ya da surətini göndərməyənləri övladlarının məktəbdə sıxışdırılacağı, attestatla bağlı problem yaşayacaqları ilə hədələyib. Hər kəsə xəbər göndərilib ki, seçkiyə axşam saat 5-dən sonra gəlsin.
- YAP Suraxanı təşkilatının sədri 30 saylı Suraxanı birinci seçki dairəsindən Hərəkət Seçki Blokunun namizədi Fərid Eyvazovun anası Sədaqət Eyvazovanı müəllim işlədiyi 146 saylı orta məktəbə çağıraraq oğlunun namizədliyinin geri çəkməsini tələb edib.
- 34 saylı Xətai ikinci seçki dairəsindən deputatlığa namizəd, Səməd Rəhimli təşviqat mərhələsinin başlamasından bir gün sonra, 18 yanvar 2020-ci ildə Daxili İşlər Nazirliyinə çağrılıb. Namizədin özünün mediaya verdiyi məlumata görə nazirlikdə ona müsahibələrində polis orqanlarını tənqid etməsinə görə irad bildirilib. Nazirlikdə olduğu müddətdə namizədə şəxsi telefonundan istifadəyə qadağa qoyulub.
- 46 saylı Şirvan seçki dairəsindən deputatlığa namizəd, Müsavat Partiyasının üzvü Əlikram Xurşidov 05 fevral 2020-ci il tarixdə Şirvan şəhər polis idaərəsinə çağırılıb. Bu haqda məlumatı namizəd özünün facebook səhifəsində yayıb.
- 47 saylı Mingəçevir seçki dairəsindən Hərəkət Seçki Blokunun namizədi Qurbanəli Yusifov 06.02.2020 tarixində Aydın Mirzəzadənin Dram Teatrındakı görüşünə toplu şəkildə insanların gətirilməsini çəkərkən onun səlahiyyətli nümayəndəsi və müşahidəçisi polisə aparılıb, izahat aldıqdan sonra sərbəst buraxılıblar.
- 5 fevralda 53 saylı Quba-Qusar seçki dairəsi üzrə deputatlığa bitərəf namizəd Cavid Qara polisə çağırılıb.

- 92 saylı Zərdab-Ucar seçki dairəsindən müstəqil namizəd Adəm Məmmodovun seçki kompaniyasında iştirak edən üzvlərdən birini işdən çıxarıblar.
- 60 saylı Salyan-Neftçala seçki dairəsində namizəd olan Kamil Musaviyə dəstək olan Kamil adlı şəxsə və Qaraçala kənd orta məktəbində xadimə kimi çalışan həyat yoldaşına həmin məktəbin direktoru təzyiqlər edib, qadını işdən çıxarmaqla, həyat yoldaşını isə həbs etdirməklə hədələyib.
- 69 saylı Cəlilabad-Masallı- Biləsuvar seçki dairəsindən namizəd olan Əlipənah Rzalı Xırmandalı kəndində görüşdə olarkən ərazidə olan polis nəfərləri insanları görüşdə iştirak etməkdən çəkindirib.
- 32 saylı Suraxanı 3-cü seçki dairəsindən müstəqil namizəd Fikrət Cəfərli 02.02.2020 tarixində görüş keçirdiyi zaman, həmin binaya gedən küçələr post patrul xidməti və icra nümayəndələri tərəfindən tutulub, vətəndaşlara görüşə getməmələri üçün təzyiq göstərilib.
- 73 saylı Lənkaran seçki dairəsindən müstəqil namizəd, Müsavat Partiyasının üzvü Yadigar Sadıqlı seçicilərlə çayxanada görüş planladığı üçün obyekt sahibinə təzyiq edilərək çayxana bağladılıb. Açıq havada görüş zamanı isə 30-a yaxın polis müdaxilə edib. Növbəti gün onun saat 11:00-da polis şöbəsinə gəlməsi tələb edilib.
- 76 saylı Lənkəran-Astara seçki dairəsində namizəd Xalid Bağırov 5 fevralda Astara rayon Xanbulan kəndində avtomobildə səsgücləndirici ilə təbliğat-təşviğat aparmaq istəyərkən polis əməkdaşı onu saxlayaraq, təbliğat aparmağa imkan verməyib və daha sonra avtomobili ilə namizədə kömək edən şəxsə təziqlər edərək ərazidən uzaqlaşdırıblar. 6 fevralda isə X.Bağırov Lənkəran polis idarəsinə çağrılıb. 3 fevral 2020-ci il tarixdə həmin dairədən YAP-ın namizədi Ziyafət Əsgərovla görüşdə iştirak edərək, namizədin vətəndaşlarla görüşünü təşkil edən şəxsdən şikayətçi olan Fəyaz Əsədov şikayətindən sonra 10 sutka həbs edilib.
- Ağcabədidə icra nümayəndəsi Ümid Partiyasının 83 saylı Ağcabədi - Füzuli seçki dairəsindən namizədi Anar İsayev posterlərini obyektlərdən yığışdırmaq göstərişi verib. DSK Anar İsayevdən seçicilərlə görüş maşurtunu istəyib və görüş zamanı icra nümayəndələrini göndərib.
- 88 saylı Göyçay seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Famil Sadıqov 15 yanvar 2020-ci ildə "Oskar" adlı çayxanada müşahidəçilərlə görüşdüyünə görə, 16 yanvarda Göyçay rayon polis idarəsinə çağırılıb.
- "REAL Cümhuriyyətçilər İttifaqı"nın 93 saylı Bərdə şəhər seçki dairəsində namizədi Ərəstun Baxşəliyevin 22 yanvar 2020-ci ildə Bərdənin Qırmızısamux kəndində seçicilərlə görüşünə polis tərəfindən müdaxilə olub.Eyni zamanda Ərəstun Baxşəliyevə 21 yanvar 2020-ci ildə Bərdə rayon icra başçısı Vidadı İsayev namizədin valideyninə oğlunun geri çəkilməsi üçün təyziq edib.
- 94 saylı Bərdə kənd seçki dairəsindən Müsavat Partiyasının namizədi Dadaş Əhmədlinin seçki kampaniyasında iştirak edən Lənbəran kəndinin sakini Məhəmməd İbrahimovun meyvə bağı icra nümayəndələri tərəfindən yandırılıb. Fevralın 5-də isə O, rayon polis şöbəsinə çağrılıb.
- Fevralın 3-də 95 saylı Tərtər seçki dairəsindən müstəqil namizəd Vüqar Əliyevin Tərtər rayon Yuxarı Qapanlı kəndinə seçicilərlə görüşünə kəndin bələdiyyə sədri müdaxilə edib, seçicilərin görüşə gəlməsinə mane olub.
- 113 saylı Şəki şəhər seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Razim Rzayevin həyat yoldaşının qardaşına namizədin təşviqatında iştirak etdiyi üçün 4 fevral 2020-ci il tarixində təzyiqlər edilib. Namizəd həmin şəxsin olduğu videonu facebook sosial şəbəkəsindən silmək məcburiyyətində qalıb.
- 116 saylı Qəbələ seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Mehdi Quliyev, 20 yanvar 2020-ci ildə Yeni Dızaxlı kəndi ərazisində seçiciləri ilə görüşü zamanı İcra nümayəndəsini əvəz edən Xasıyev Təbriz onlara təcili şəkildə kəndi tərk etmələrini bildirib. Kəndi tərk etməzlərsə güc tətbiq edəcəyini söyləyib.

## d) Təşviqat materiallarının məhv edilməsi

IDI ilə əməkdaşlıq edən muşahidəcilər təşviqat dövründə məlumat lövhələrində, yol kənarlarında, xususi mulkiyyətdə olan obyektlərdə və digər yerlərdə namizədlərə aid təşviqat materiallarının məhv edilməsini muşahidə ediblər.

- 8 saylı Binəqədi seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Rüfət Rəhimovun və Müsavat Partiyasının namizədi Arzu Səmədbəylinin posterləri 31 yanvar 2020-ci il tarixində məhv edilib.
- 11 saylı Qaradağ seçki dairəsi 32 və 12 saylı məntəqələrdə 2 fevral 2020-ci ildə "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Samir Məmmədovun posterləri məhv edilib.
- 12 saylı Yasamal seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Natiq Cəfərlinin 24 yanvar 2020-ci ildə 286 nömrəli orta məktəbdə, 29 yanvarda 2 saylı məntəqədə isə müstəqil namizəd Kərim Kərimlinin posteri məhv edilib. 3 fevral 2020-ci ildə Natiq Cəfərlinin Lökbatan ərazisində yerləşən 14 obyektə vurulan plakatlardan 8-i rayon icra başçısının göstərişi ilə obyektlərdən yığışdırılıb.
- 21 saylı Nəsimi birinci seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Fərhad Mehdiyevin 29 yanvar 2020-ci ildə Səlimzadə küçəsində yerləşən obyektdə mülkiyyətçi ilə razılaşdırıb darvazasına yapışdırdığı posteri mülkiyyətçinin icazəsi olmadan qoparılıb.
- 22 saylı Nəsimi ikinci seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Elçin Haqverdiyevin 1 fevral 2020-ci ildə 6, 13, 14 və 25 saylı məntəqələrdə posterləri qoparılıb.
- 24 saylı Nizami birinci seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Ayxan Mehdizadənin posterləri 1 fevral 2020-ci il tarixində 19 saylı mətəqədə məhv edilib.
- 29 saylı Səbail seçki dairəsindən Müsavat Partiyasının namizədi Fərəc Kərimlinin 27 yanvarda 4,8,10, 11 və 14 saylı məntəqə ərazilərində plakatları qoparılıb.
- 30 saylı Suraxanı birinci seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Mahmud Mahmudovun 20 yanvar 2020-ci il tarixində 19 və 21 saylı məntəqələrdə posterini lövhədən götürüblər.
- 40 saylı Kəpəz(Gəncə) seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Toğrul İskəndərlinin posterləri 3 fevral 2020-ci ildə 7, 20 və 21 saylı məntəqələrdə cırılıb.
- 41 saylı Sumqayıt birinci seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Vasif İsmayılın 23 yanvar 2020-ci il tarixində 7 və 8 saylı məntəqələrdə plakatlarını korlayıblar. 48-ci məhəllə və 17-ci mikrorayon ərazisində obyektlərə yapışdırılan plakatları cırılıb. Son 10 gün ərzində Olimpiya stadionundan 21-ci məhəlləyə qədər olan ərazidə bütün plakatları qopardılıb. Müsavat partiyasından namizəd Könül Alının 27 yanvar tarixində plakatları məhv edilib.
- 42 saylı Sumqayıt ikinci seçki dairəsindən namizəd Elşad İsrafilin 27 yanvar tarixində Nərimanov adına Mədəniyyət Evinin və 16 nömrəli məktəbin önündən plakatları qopardılıb.
- 54 saylı Şabran-Siyəzən seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizədi Rüstəm Hidayətzadənin 28 yanvar Şabran rayon Ağbaş kəndində, 2 fevral 57 saylı məntəqədə posterini qoparıblar.
- 93 saylı Bərdə şəhər seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Ərəstun Baxşəliyevin 30 yanvar tarixində 26 saylı məntəqədə Qırmızı Samux kəndi üzrə sahə müvəkkili onun posterini məhv edib.
- 95 saylı Tərtər dairəsindən namizədi Tamilla Qulaminin 5 nömrəli məktəbdə və kəndlilərin qapılarından və mağazalarından sahiblərinin icazəsi ilə vurduğu posterlər gecə icra nümayəndələri tərəfindən yığışdırılıb.
- 94 saylı Bərdə kənd seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Zöhrab Əliyevin 26 yanvar 41 mömrəli məntəqədə, 23 yanvar tarixində 21 və 22 saylı məntəqədə posteri korlanıb. Zöhrab Əliyev 94 saylı dairənin ərazisində yerləşən marketlərlə müqavilə bağlayaraq posterlərin asıl-

ması üçün icazə alsa da, posterlər vurulduqdan sonra, 19 yanvardan DSK sədri posterlərin götürülməsini tələb edib.

- 108 saylı Ağstafa seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Vüqar Mustafayevin posteri 28 yanvar 10 saylı məntəqədə korlanıb, 4 fevralda Ağstafa şəhəri və şəhərin Dağkəsəmən kəndində yerləşən obyektlərə yapışdırdığı plakatlar qoparlıb.
- 114 saylı Şəki kənd birinci seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Mete Türksoyun 21 yanvarda Şəkinin Baş Göynük kəndində yerləşən obyekt sahibinin razılığı ilə vurduğu poster 23 yanvarda icra nümayəndəsi Rza Cəlalovun göstərişi ilə qoparılıb.

**e) Qapalı yerlərdə görüşlərin keçirilməsinə yaradılan manelər**

Seçki Məcəlləsinin 86.6-cı maddəsinə görə qeydə alınmış namizədlərin hərbi qulluqda sayılan seçicilərlə görüşlərini hərbi hissə komandirinin dairə seçki komissiyası ilə birlikdə belə görüşün keçirilməsini təyin etdikləri günə azı 3 gün qalmış müvafiq seçki dairəsi üzrə qeydə alınmış bütün namizədlər və ya onların təmsilçiləri mütləq dəvət edilməsi və ya onlara xəbər verilməsi şərti ilə təşkil edə bilər. Bu görüşlərin keçirilməsində bütün namizədlərə bərabər şərait və həmin görüşlərin müşahidə edilməsi üçün müşahidəçilərə imkan yaradılmalıdır.

- 12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsindən müstəqil namizəd Kərimli Kərimli həbsxana və hərbi hissələrdə görüş keçirmək üçün DSK-ya müraciət edib. DSK sədri həmin yerlərdə seçki gününə 5 gün qalmış məntəqə yaradılacağını və o zaman görüş keçirilə biləcəyini deyib. DSK sədri əlavə olaraq bildirib ki, həbsxanalardakı görüşlər üçün Ədliyyə nazirliyinə, hərbi hissələrdəki görüşlər üçün Müdafiə nazirliyinə müraciət etmək lazımdır. Beləliklə görüşə imkan yaradılmayıb.
- 73 saylı Lənkaran şəhər seçki dairəsindən müstəqil namizəd Yadigar Sadıqlı ərazidə yerləşən hərbi hisssədə seçicilərlə görüş keçirmək üçün DSK-ya müraciət edib. Lakin DSK-dan görüş hərbi hissə komandiri ilə razılaşdırılmalıdır bəhanəsilə müsbət cavab almayıb.
- 95 saylı Tərtər seçki dairəsində 3 fevral tarixində müstəqil namizəd Vüqar Əliyev qapalı müəssisədə görüş keçirmək üçün DSK-ya müraciət edib. Lakin DSK seçicilərlə görüşü təşkil etməyib.

## VIII. MEDIA

Əvvəlki hesabatlarda media mühitinə dair qiymətləndirmədə müsbətə doğru dəyişiklik baş verməyib. Yenə də müstəqil media mühiti məhduddur, xüsusilə elektron media bütünlüklə hökumətin nəzarəti altındadır.

Seçkiqabağı mühiti nəzərdən keçirərkən müstəqil medianın üzləşdiyi vəziyyət xüsusilə narahatlıq doğurur. IDI medianın seçkilərdə fəaliyyətini qiymətləndirmək üçün monitorinq aparmış və birinci dövr (11 dekabr 2019 –16 yanvar 2020-ci il ) üçün nəticələr 23 yanvar 2020-ci il tarixdə açıqlayıb.[14] Həmçinin ikinci dövr üçün monitorinqin nəticələri isə 8 fevral 2020-ci ildə yayımlanıb.

[14] http://idi-aze.org/az/idi-nvbedenkenar-parlament-seikileri-ile-bal-media-monitorinqinin-birinci-dvr-n-hesabatn-yayd/

## IX. ŞİKAYƏT VƏ MÜRACİƏTLƏR

Seçki Məcəlləsinin 112-ci maddəsinə görə şikayət və müraciətləri seçicilər, namizədlər, siyasi partiyalar və bloklar və onların nümayəndələri, müşahidəçilər və seçki komissiyaları edə bilərlər. Seçki komissiyalarının seçki hüquqlarını pozan hərəkət və qərarlarına daha yüksək səviyyəli seçki komissiyasında baxıla bilər. Habelə MSK-nın qərar və hərəkətlərindən Apelyasiya Məhkəməsinə şikayət etmək olar. Apelyasiyadan isə Ali Məhkəməyə şiakyət etmək mümkündür. Şikayət və ya müraciəti təqdim etmək üçün vaxt müddəti, pozuntunun baş verdiyi və ya qərarın çıxarıldığı gündən sonra 3 gündür. Şikayətə baxılma müddəti isə seçkilərə 30 gün qalmışadək 3 gün ərzində, 30 gün qalmışdan etibarən 2 günədək, seçki günü və növbəti gün isə dərhal baxılmalıdır.

Seçki Məcəlləsi seçki ilə bağlı mübahisələrə baxılması üçün müvafiq olaraq MSK-da 9, DSK-da 3 nəfərdən ibarət ekspert qrupunun yaradılmasını nəzərdə tutur.

9 fevral 2020-ci il parlament seckilərinin ilkin mərhələsində, yəni namizədlərin irəli surulməsi və qeydiyyatı prosesində dairə secki komissiyalarının hərəkətlərindən və hərəkətsizliklərindən olunan şikayətlərin əhəmiyyətli hissəsi obyektiv surətdə araşdırılmayıb. Qeyd edək ki, MSK-nın rəsmi internet səhifəsində yerləşdirilən məlumata gorə, parlament seckilərinin bu mərhələsində 27 namizəd, 4 vətəndaş və 1 səlahiyyətli nümayəndədən MSK-ya 23 şikayət daxil olub. Bu şikayətlərdən 4-ü təmin edilib, 2 şikayət qismən təmin edilib, 17 şikayət əsassız olması adı ilə təmin edilməyib. Bir namizədin iki şikayətidə təmin olunmayıb. Təmin edilməyən şikayətlər üzrə hərtərəfli şəkildə araşdırılma aparılmayıb. Ekspert Qrupunun uzvləri tərəfindən şikayətlər araşıdırılarkən daha çox dairə secki komissiyasının qərarına əsaslanılıb. Araşdırma zamanı MSK da DSK-lar kimi aşkarlıq prinsipini və araşdırmaya dair prosedural prinsipləri pozub.

***Məhkəmələr tərəfindən iddia ərizələrinə (kassasiya şikayətlərinə) baxılma üzrə statistik xülasə***

Hesabat dövrü (17.01.2020-07.02.2020) üzrə apelyasiya instansiyası məhkəmələri və Ali Məhkəmə tərəfindən baxılmış işlərin statistikasını aşağıdakı kimi ümumiləşdirmək mümkündür:[15]

• Bu dövr ərzində Bakı Apellyasiya Məhkəməsi tərəfindən seçki şikayətlərinə dair iddia ərizələri üzrə 14 işə baxılıb. Verilmiş şikayətlərdən 12 şikayət namizədliyin qeydiyyata alınmaması, 2 şikayət isə təşviqatın pozulması ilə bağlı olub. Bakı Apellyasiya Məhkəməsi tərəfindən baxılmış işlərdən 13-nə dair mahiyyət üzrə qərar qəbul edilib və iddia tələbi təmin edilməyib. 1 iddia üzrə işə baxılma mümkünsüz hesab edilib.

• Bu dövr ərzində Şirvan Apellyasiya Məhkəməsi tərəfindən seçki şikayətlərinə dair iddia ərizələri üzrə 1 işə baxılıb. Verilmiş şikayət namizədliyin qeydiyyata alınmaması ilə əlaqədar olub. Həmin işə mahiyyət üzrə baxılıb və iddia tələbi təmin edilməyib;

• Bu dövr ərzində Ali Məhkəmə tərəfindən seçki şikayətlərinə dair apellyasiya məhkəmələrinin qərarlarından verilmiş kassasiya şikayətləri üzrə 11 işə baxılıb. Bu işlər üzrə kassasiya şikayəti təmin edilməyərək iddia tələblərinin təmin edilməməsinə dair apellyasiya məhkəməsinin qərarları qüvvədə saxlanılıb.

---

[15] **Qeyd:** bütün apellyasiya instansiyası məhkəmələrinin rəsmi statitik məlumatları ictimaiyyətə tam açıq olmadığına görə məlumatda natamamlıqlar ola bilər. Bu xülasə müşahidə edilə bilən məlumatları əhatə edir.

Nəticə etibarilə, məhkəmələr işin mahiyyət üzrə ( aidiyyət qərarlarını nəzərə almasaq) bu dövr ərzində verilmiş 25 seçki şikayətinin (14 iddia ərizəsi, 11 kassasiya şikayəti olmaqla) 24 -ü məhkəmələr tərəfindən təmin edilməyib, 1 seçki şikayəti mümkün sayılmayıb.

Namizədliyin qeydiyyata alınmaması ilə bağlı iddia ərizələri apellyasiya instansiya məhkəmələri tərəfindən praktikada əsasən Apellyasiya məhkəmələrinin inzibati-iqtisadi kollegiyaları işlərə formalist üslubla yanaşıb və çox qısa müddətdə baxıb.

Ali Məhkəmədə verilən şikayətlər üzrə işlər də çox qısa müddətdə baxılıb. Bu müddətdə şikayətin mahiyyəti üzrə heç bir araşdırma aparılmayıb.

IDI MSK-da və məhkəmələrdə şikayətlərin baxılmasının monitorinqini aparır və monitorinqin nəticələrini seçkidən sonra ayrıca hesabat olaraq ictimaiyyətə çatdıracaq.

## X. MÜŞAHİDƏÇİLƏR

Seçki Məcəlləsi beynəlxalq və vətəndaşlar tərəfindən aparılan yerli müşahidəni nəzərdə tutur. Yerli müşahidəçilər fərdi və ya qeydiyyatdan keçmiş namizəd, partiya və ya seçkilər sahəsində fəaliyyət göstərən QHT nümayəndəsi kimi qeydiyyata alınırlar. MSK ölkə üzrə müşahidə aparmağı arzulayan müşahidəçiləri qeydiyyata alır, DSK-lar isə məhz seçki dairəsində müşahidə aparacaq müşahidəçilərin akkreditasiyası ilə məşğuldur.

Rəsmi məlumata görə MSK tərəfindən ölkə üzrə 1860 və DSK tərəfindən 56484 yerli müşahidəçi qeydiyyata alınıb.[16] Xatırladaq ki, 2015-ci il parlament seçkilərində MSK tərəfindən ölkə üzrə 2619 və DSK tərəfindən 63000 yerli müşahidəçi qeydiyyata alınmışdı.

2014-cü ildən etibarən vətəndaş cəmiyyətinə yaradılan ciddi məhdudiyyətlər nəticəsində seçki təcrübəsi olan bəzi QHT-lər müşahidəçilik və digər seçki fəaliyyətlərilə məşğul olmaqdan məhrum olub. Bütün çətinliklərə baxmayaraq uzunmüddətli və qısamüddətli müşahidə aparan, pulsuz hüquqi yardım göstərən az saylı təşkilatlar öz fəaliyyətlərini davam etdirir.

***Müşahidəçilərin qeydiyyatı zamanı bir sıra problemlər yaradılıb:***

- Ümid Partiyasının 83 saylı Ağcabədi-Füzuli seçki dairəsindən namizədi Anar İsayevin müşahidəçi və vəkil təyin etməklə bağlı müraciətini DSK rədd edib.
- 117 saylı Oğuz-Qəbələ seçki dairəsindən müstəqil namizəd Ləman İsmayılova seçki məntəqələrinə məşvərətçi təyin etmək istədikdə DSK sədri Rəsul Cəfərov bunun qanuni olmadığını və icazə verilmədiyini bildirib.
- 3 fevral 2020-ci ildə Hərəkət seçki blokunun namizədi Turqut Qəmbər müşahidəçi təyin edib, sənədləri 22 saylı Nəsimi ikinci DSK-ya təqdim edərkən yeni nəsil şəxsiyyət vəsiqəsinə malik olan 2 müşahidəçinin şəxsiyyət vəsiqəsinin surəti ilə birgə əslini də tələb edilib və onların müşahidəçi olmaq hüququ təmin edilməyib.

[16] https://apa.az/az/daxili_siyaset/Milli-Mclis-novbdnknar-seckilrl-laqdar-58-mindn-artiq-yerli-musahidci-qeydiyyatdan-kecib-569480

- 88 saylı Göyçay seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Famil Sadıqov 3 fevral 2020-ci ildə DSK-ya müşahidəçilərin qeydə alınması üçün müraciət etdikdə onları qeydiyyata almayıblar.
- 113 saylı Şəki şəhər seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Razim Rzayev 30 yanvar 2020-ci il tarixdə saat 12.00-da müraciət etdikdə DSK onun müşahidəçilərini qeydə almaqdan imtina edib. DSK-dan bildiriblər ki, öncə müşahidəçilər sədrlə görüşməlidir.

***Exit-poll***
Bu dövrdə MSK tərəfindən exit-poll keçirmək üçün 3 təşkilat qeydiyyata alınıb. Exit-poll keçiriməyə icazə verilən qurumların MSK-ya təqdim edilən məlumatları ictimaiyyətə açıq deyil. Arqument.az saytının baş redaktoru Şəmşad Ağa exit-poll keçirən təşkilatların təqdim etdiyi məlumatların açıqlanmasına dair 4 fevral 2020-ci ildə MSK-ya jurnalistin informasiya sorğusunu göndərib. KİV haqqında qanunun 8-ci maddəsinin tələbinə görə jurnalstin sorğusuna 24 saatdan gec olmayaraq cavab verilməlidir. Lakin MSK-sorğuya cavab verməyib.

Yuxarıda qeyd edilənlər və əvvəlki seçkilərin neqativ təcrübəsi həmin qurumların keçirəcəyi sorğunun obyektivliyinə ciddi etimatsızlıq formalaşdırıb.

***Beynəlxalq müşahidəçi***
MSK-nın rəsmi rəqəminə görə ATƏT, AŞPA da daxil olmaqla adı geniş ictimaiyyətə bəlli olmayan 56 beynəlxalq təşkilatdan, 55 ölkəni təmsil edəcək 842 beynəlxalq müşahidəçi seçkiləri müşahidə edəcəkdir.

## XI. NƏTİCƏLƏR VƏ TÖVSİYYƏLƏR

**IDI Parlament seckiləri gedişinin ikinci mərhələsilə bağlı aşağıdakı nəticələrə gəlir:**

- Son illərdə Secki Məcəlləsinə edilmiş məhdudlaşdırıcı əlavə və dəyişikliklər, təşviqat mühitinin və məkanlarının əlverişsizliyi, İctimai Televiziyada pulsuz efir vaxtının olmaması, pullu efir üçün tələb olunan yüksək maliyyə şərtləri namizədlərin fəal və rəqabətli təşviqat aparma imkanlarını ciddi daraldıb, ölkədə siyasi plüralizmin təmin edilməsinə mane olub.
- MSK öz fəaliyyətini texniki cəhətdən qanunauyğun qaydada və müddətdə həyata keçirib. Lakin seçki qabağı təşviqat zamanı namizədlər üçün bərabər şəraitin yaradılmasını təmin edə bilməyib.
- Seckiqabağı təşviqat prosesində siyasi azadlıqların, xüsusilə ilə söz və mətbuat azadlığı və sərbəst toplaşmaq azadlığının təmin olunması yönündə irəliləyişlər baş verməyib, siyasi məhbus heasb edilən şəxslər azad edilməyib.
- Seckiqabağı təşviqat prosesi yerli icra orqanlarının secki prosesinə mudaxilələri, müxalif namizədlərə, onların təşviqatçılarına qarşı təzyiqlər, inzibati resurslardan istifadə halları, namizədlər arasındakı bərabərlik prinsipinin pozulması ilə muşayiət olunub.
- Yerli muşahidəcilərin qeydiyyatı prosesi uzrə yubanmalar və məhdudiyyətlər qeydə alınıb;

**IDI Parlament seckiləri gedişinin ikinci mərhələsində gəlinən nəticələrə əsasən aşağıdakıları təklif edir:**

- Yerli və beynəlxalq təşkilatlarının cağırışlarına diqqət yetirilməli, ölkədə qarşılıqlı etimad mühitinin yaradılması üçün siyasi və vicdan məhbusu kimi tanınan şəxslər həbsdən azad edilməlidir;

- Seçki huququnu pozan butun şəxslər, xüsusən də bu işlərdə iştirak etmiş dövlət və bələdiyyə orqanlarının vəzifəli şəxsləri məsuliyyətə cəlb edilməli və cəzalandırılmalıdır.
- Secki komissiyaları secki gunu muşahidəcilərə secki prosesini normal şəraitdə müşahidə etmək üçün şərait yaratmalıdır;
- Secki komissiyaları secki iştirakcılarına təzyiqlərin baş verməməsi üçün Seçki Məcəlləsilə üzərində düşən vəzifələri yerinə yetirməlidir.
- Seçki günü səsvermə və səslərin sayılması proesinə yerli icra orqanları və digər strukturların kənar mudaxilələrinin qarşısının alınması üçün hakimiyyət siyasi iradə numayiş etdirməlidir.

**IDI İdarə Heyəti**

Bakı şəhəri, 7 fevral 2020-ci il

**Əlaqə :**

**Tel:** (+994 55) 234 76 76

**E-mail:** idi.azerbaijan@gmail.com

**Veb səhifə:** www.idi-aze.org

**Facebook page:** https://www.facebook.com/DTI.IDI/

*1 saylı ƏLAVƏ*

**MSK-nın rəsmi rəqəmləri əsasında namizədlərin sayının statistikası**

| Sıra sayı | Seçkidə iştirak edən tərəf | Qeydə alınmış namizədlərin sayı | Partiya mənsubiyyəti göstərənlərin sayı | Partiya tərəfindən irəli sürülmə | Öz təşəbbüsü və ya təşəbbüs qrupu tərəfindən irəli sürülmə |
|---|---|---|---|---|---|
| 1 | YAP | 125 | 125 | 122 | 3 |
| 2 | MÜSAVAT | 60 | 60 | 25 | 35 |
| 3 | ÜMİD | 19 | 18 | 19 | 1 |
| 4 | BAXCP | 13 | 13 | 13 | |
| 5 | VAP | 12 | 12 | 12 | |
| 6 | AMİP | 10 | 10 | 9 | 1 |
| 7 | AVP | 8 | 8 | 8 | |
| 8 | ADP | 8 | 8 | 7 | 1 |
| 9 | MDHP | 7 | 7 | 7 | |
| 10 | BQP | 6 | 6 | 2 | 4 |
| 11 | MMP | 5 | 5 | 4 | 1 |
| 12 | DİP | 3 | 3 | 3 | |
| 13 | ASRP | 3 | 3 | 1 | 2 |
| 14 | BAP | 2 | 2 | 1 | 1 |
| 15 | AP | 2 | 2 | | 2 |
| 16 | DADP | 2 | 2 | | 2 |
| 17 | AXP | 2 | 2 | | 2 |
| 18 | VP | 1 | 1 | 1 | |
| 19 | AMP | 1 | 1 | | 1 |
| 20 | ADMP | 1 | 1 | 1 | |
| 21 | AKP | 1 | 1 | | 1 |
| 22 | ƏP | 1 | 1 | | 1 |
| 23 | VBP | 1 | 1 | | 1 |
| 24 | ALDP | 1 | 1 | 1 | |
| 25 | MVP | 1 | 1 | | 1 |
| 28 | BİTƏRƏFLƏR | 1010 | | 2 | 1010 |
| 39 | CƏMİ | 1305 | 294 | 238 | 1070 |

*2 saylı ƏLAVƏ*

| DSK | Pozuntular | | | | Siyasi alternativlik göstəricisi olmayan seçki dairələri |
|---|---|---|---|---|---|
| | İnzibati-maliyəyə resurslardan istifadə | Namizədlərə bərabər imkanların yaradılmaması | Seçkiqabağı dövrdə təzyiq | Təşviqat matereallarının məhvi | |
| 1 | X | | | | X |
| 2 | | | | | X |
| 3 | | | | | X |
| 4 | | | | | X |
| 5 | | | | | X |
| 6 | | | | | X |
| 7 | | | | | X |
| 8 | | | X | X | |
| 9 | X | X | | | |
| 10 | X | X | | | |
| 11 | | | | X | |
| 12 | X | | X | X | |
| 13 | X | X | | | |
| 14 | X | X | X | X | |
| 15 | | | | X | |
| 16 | | | | | |
| 17 | X | X | | X | |
| 18 | X | | X | X | |
| 19 | X | X | | X | |
| 20 | | | | | X |
| 21 | X | X | | X | |
| 22 | X | X | | X | |
| 23 | | X | | X | |
| 24 | X | X | | X | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 25 | X | X | | X | |
| 26 | X | | | | |
| 27 | X | X | X | X | |
| 28 | X | | | X | |
| 29 | X | X | | X | |
| 30 | X | X | X | X | |
| 31 | X | X | | | |
| 32 | X | X | X | X | |
| 33 | X | X | | | |
| 34 | X | X | | | |
| 35 | X | X | | | |
| 36 | | | | | |
| 37 | | | | | X |
| 38 | X | X | | | X |
| 39 | | | | | X |
| 40 | X | | | X | |
| 41 | X | X | X | X | |
| 42 | X | | | X | |
| 43 | X | | | | |
| 44 | | | | | |
| 45 | X | | | | X |
| 46 | X | | X | | |
| 47 | X | X | X | | |
| 48 | | | | | X |
| 49 | | | | | |
| 50 | | | | | X |
| 51 | | | | | X |
| 52 | | | | | X |
| 53 | X | | | | |
| 54 | X | | X | X | |
| 55 | X | | X | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 56 | X | | | | |
| 57 | | | | | X |
| 58 | | | | | X |
| 59 | | | | | X |
| 60 | X | X | X | | |
| 61 | X | X | | | |
| 62 | | | | | X |
| 63 | X | X | | | |
| 64 | | | | | X |
| 65 | | | | | X |
| 66 | X | X | X | | |
| 67 | | | X | X | |
| 68 | X | | X | | |
| 69 | X | X | X | | |
| 70 | | | | | X |
| 71 | X | X | | | |
| 72 | X | X | | | |
| 73 | | X | X | X | |
| 74 | X | X | | | |
| 75 | X | X | | | |
| 76 | X | X | | X | |
| 77 | X | X | X | X | |
| 78 | X | | | | |
| 79 | X | X | | | |
| 80 | X | X | | | |
| 81 | | | | | X |
| 82 | | | | | X |
| 83 | X | | | | |
| 84 | X | X | | | |
| 85 | X | X | | X | |
| 86 | | | | | X |

| | | | | | |
|---|---|---|---|---|---|
| 87 | | | | | X |
| 88 | X | X | X | X | |
| 89 | X | | | | |
| 90 | | | | | |
| 91 | X | X | | | |
| 92 | X | X | | | |
| 93 | X | X | X | X | |
| 94 | X | X | X | X | |
| 95 | X | X | | X | |
| 96 | | | | | |
| 97 | X | | | | |
| 98 | | | | | X |
| 99 | | | | | X |
| 100 | | | | | X |
| 101 | | | | | X |
| 102 | | X | | | X |
| 103 | | | | | X |
| 104 | X | X | | | |
| 105 | | | | | X |
| 106 | | | | | |
| 107 | | | | | |
| 108 | X | | | X | |
| 109 | | | | | X |
| 110 | X | X | | | |
| 111 | | | | | X |
| 112 | X | X | | | |
| 113 | X | X | X | X | |
| 114 | X | | X | X | |
| 115 | | | | | X |
| 116 | X | | X | | |
| 117 | X | X | | X | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 118 | X | | | | |
| 119 | | | X | | X |
| 120 | X | | | | |
| 121 | X | | | | |
| 122 | | | | | X |
| 123 | | | | | X |
| 124 | X | | | X | |
| 125 | X | | | | |